# A LUMINOUS FIGURE OF ISLAMIC SCIENCE: SHEIKH BAHA'UDDIN AMILI

**Mirabbas Mirbaghirov**[1]
**Ibrahim Quliyev**[2]

**UDC:** 92(550)"15":72(091)
**LBC:** 86.38:85.113
**HoS:** 107
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.16-27

**Keywords:**

Sheikh Baha al-Din al-Amili,
Safavid era,
Islamic scholar,
Architecture,
Shah Abbas Mosque,
Ganja,
Isfahan,
Bathhouse architecture,
Intellectual history

## ABSTRACT

Sheikh Baha al-Din al-Amili (1547–1621) was a prominent Islamic scholar, philosopher, engineer, and architect. He made significant contributions to both religious and secular sciences, producing works in mathematics, astronomy, philosophy, jurisprudence, and architecture. During the Safavid era, he played an important role in scientific and architectural developments, being credited with the design of the Shah Abbas Mosque (Juma Mosque) and its adjacent bathhouse in Ganja, as well as the famous bathhouse in Isfahan heated through a special water channel system. His life and works remain an essential chapter in the intellectual history of the East.

[1] Second-year Master's student, Faculty of Islamic Studies, Azerbaijan Institute of Theology; Baku, Azerbaijan (corresponding author)
E-mail: m.mirzahiroglu@gmail.com
https://orcid.org/0009-0006-5627-3667
[2] Doctor of Philosophy in Philosophy, Associate Professor,
Azerbaijan Institute of Theology; Baku, Azerbaijan
E-mail: quliyev.ibrahim.78@mail.ru
https://orcid.org/0000-0001-9789-3148
**To cite this article:** Mirbaghirov, M., & Quliyev, I. [2025]. A Luminous Figure of Islamic Science: Sheikh Baha'uddin Amili. *History of Science journal*, *6*(5), pp.16-27.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.16-27

***Article history:***
*Received: 25.09.2025*
*Revised: 27.10.2025*
*Accepted: 01.12.2025*
*Published: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# İSLAM ELMİNİN PARLAQ SİMASI: ŞEYX BƏHAƏDDİN AMİLİ

**Mirabbas Mirbağırov**[1]
**İbrahim Quliyev**[2]

**UOT:** 92(550)"15":72(091)
**KBT:** 86.38:85.113
**HoS:** 107
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.16-27

**Açar sözlər:**

Şeyx Bəhaəddin Amili,
Səfəvilər dövrü,
İslam alimi,
Memarlıq,
Şah Abbas məscidi,
Gəncə,
İsfahan,
Hamam memarlığı,
İntellektual tarix

**ANNOTASİYA**

Şeyx Bəhaəddin Amili (1547–1621) islam dünyasının görkəmli alim, filosof, mühəndis və memarlarından biridir. O, dini və dünyəvi elmlərdə zəngin irs qoymuş, riyaziyyat, astronomiya, fəlsəfə, fiqh və memarlıq sahəsində dəyərli əsərlər yaratmışdır. Səfəvilər dövründə həm elmi, həm də memarlıq fəaliyyətində mühüm rol oynamış, Gəncədə Şah Abbas məscidi (Cümə məscidi) və ona bitişik hamamın, həmçinin İsfahanda xüsusi su kanalı ilə qızdırılan hamamın layihələndirilməsində iştirak etmişdir. Onun həyat və yaradıcılığı bu gün də Şərq intellektual tarixinin mühüm səhifəsi kimi araşdırılmaqdadır.

[1] Azərbaycan İlahiyyat İnstitutu, İslamşünaslıq fakültəsi, II kurs magistr tələbəsi; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: m.mirzahiroglu@gmail.com
https://orcid.org/0009-0006-5627-3667
[2] Fəlsəfə üzrə fəlsəfə doktoru, Dosent,
Azərbaycan İlahiyyat İnstitutu; Bakı, Azərbaycan
E-mail: quliyev.ibrahim.78@mail.ru
https://orcid.org/0000-0001-9789-3148
**Məqaləyə istinad:** Mirbağırov, M., & Quliyev, İ. [2025]. İslam elminin parlaq siması: Şeyx Bəhaəddin Amili. *History of Science jurnalı, 6*(5), səh.16-27.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.16-27

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 25.09.2025*
*Yenidən baxılıb: 27.10.2025*
*Təsdiqlənib: 01.12.2025*
*Dərc olunub: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ЯРКАЯ ЛИЧНОСТЬ ИСЛАМСКОЙ НАУКИ: ШЕЙХ БАХАУДДИН АМИЛИ

**Мираббас Мирбагиров**[1]
**Ибрагим Гулиев**[2]

**УДК:** 92(550)"15":72(091):28
**ББК:** 86.38:85.113
**HoS:** 107
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.16-27

**Ключевые слова:**

Шейх Бахаэддин Амели,
Эпоха Сефевидов,
Исламский учёный,
Архитектура,
Мечеть Шаха Аббаса,
Гянджа,
Исфахан,
Архитектура хаммамов,
Интеллектуальная история

## АННОТАЦИЯ

Шейх Бахаэддин Амели (1547–1621) был выдающимся исламским учёным, философом, инженером и архитектором. Он оставил богатое наследие в религиозных и светских науках, создав труды по математике, астрономии, философии, фикху и архитектуре. В эпоху Сефевидов сыграл важную роль в науке и архитектуре, был автором архитектурных сооружений в Гяндже – мечети Шаха Аббаса (Джума-мечеть) и прилегающего хаммама, а также знаменитого хаммама в Исфахане, обогреваемого через специальный водный канал. Его жизнь и творчество до сих пор остаются важной страницей интеллектуальной истории Востока.

[1] Магистрант 2-го курса Факультета Исламоведения Азербайджанского Института Теологии; Баку, Азербайджан (ответственный автор)
E-mail: m.mirzahiroglu@gmail.com
https://orcid.org/0009-0006-5627-3667
[2] Кандидат философских наук, доцент,
Азербайджанский Институт Теологии; Баку, Азербайджан
E-mail: quliyev.ibrahim.78@mail.ru
https://orcid.org/0000-0001-9789-3148
**Цитировать статью:** Мирбагиров, М., & Гулиев, И. [2025]. Яркая личность исламской науки: Шейх Бахауддин Амили. *Журнал History of Science*, 6(5), с.16-27.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.16-27

***История статьи:***
*Поступила: 25.09.2025*
*Переработана: 27.10.2025*
*Принята: 01.12.2025*
*Опубликована: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

"Şübhəsiz ki, alimlər peyğəmbərlərin varisləridirlər. Peyğəmbərlər nə qızıl, nə də gümüş miras qoyurlar. Onların mirası yalnız elmdir. Bu baxımdan, kim peyğəmbərlərin mirası olan elmdən nə qədər əldə edərsə, o qədər də dərəcə və məqam qazanmış olar" [Hədislərlə İslam, 2016]. Peyğəmbərlərin ən böyük və dəyərli mirasının elm olduğunu nəzərə aldıqda, bu qiymətli irsi mühafizə edən, inkişaf etdirərək gələcək nəsillərə ötürən alimlərin islam tarixində rolu əvəzsiz və danılmazdır. Alimin, elmin əhəmiyyətini anlamaq üçün peyğəmbərin (s) bu hədisi gözəl nümunədir: "Qiyamət günü şəhidlərin qanı ilə alimlərin mürəkkəbi eyni tərəziyə qoyular və mürəkkəb ağır gələr". Alimin olmadığı cəmiyyətlərdə ictimai tarazlıq və haqlı müdafiədən söz gedə bilməz. Belə toplumlarda haqsız hökm, batil etiqadlar və natamam biliklər mövcud olar. Elm və bilik dini və fiqhi mövzularda, hərbi sektorda, hüquq, səhiyyə, təhsil sahələrində mütəxəssis olmayanların əlində olanda dəyərini itirir və təhlükəli bir vasitəyə çevrilir. Çünki elmin hər sahəsi öz əhli ilə dəyər qazanır, əks təqdirdə isə elmin həqiqi dəyəri üzə çıxmır. Bu səbəbdən tarix boyu "alim" adı yalnız elm sahəsində yetkin biliyə və mütəxəssis olan şəxslərə aid edilmişdir. Hətta görkəmli mütəfəkkirlər belə "alim" adı ilə onlara müraciət edildiyi zaman təvazökarlıq nümayiş etdirmiş, bu yüksək və ali məqamı özlərinə aid etməkdə ehtiyatlı davranmışlar.

Dini biliklər peyğəmbər (s) əfəndimizdən etibarən heç dəyişmədən, əsas şəkli ilə həqiqi islam alimləri tərəfindən günümüzə qədər gəlib çıxmışdır [ehlisunnetbuyukleri.com, 2025]. Peyğəmbərimizin sözləri və feilləri olaraq nəql olunan hədislərə nəzər saldıqda, bu hədislərin dəyişməməsi və nəql olunduğu tərzdə qalması üçün onları Peyğəmbərdən sonra yazıya köçürənin ravi zəncirinin etibarlı, dürüst, ədalətli insanlardan ibarət olmasına diqqət yetirməsinə şahid oluruq. Bu səbəbdən cəmiyyətə istiqamət verən bu biliklər dəyərli islam alimləri vasitəsilə günümüzə qədər ilk günkü möhtəviyyatını itirmədən nəql edilmişdir. O alimlərin həyatında bizi öz dövrləri və cəmiyyətləri ilə tanış edən, bu gün isə elm məclislərində nümunə kimi nəql olunan hikmətlə dolu bir elm gizlidir.

İslam dünyasında hər dövrdə elm sahəsində xüsusi mövqeyə sahib olan parlaq şəxsiyyətlər olmuşdur. Onların həyatlarını nəzərdən keçirdikdə bu alimlərin təkcə dini məsələlərdə deyil, həm də fəlsəfə, astronomiya, ədəbiyyat, riyaziyyat və digər elm sahələrində də bəşəriyyətə böyük töhvələr verdiyinin şahidi oluruq. Belə görkəmli şəxslərdən biri də XVl–XVll əsrlərdə yaşamış həm dini, həm də dünyəvi elmlərdə günümüzdə də istinad olunan, öz zəngin biliklərini elm cameəsinə irs qoyub getmiş Şeyx Bəhaəddin Amilidir. Həyatı, şəxsiyyəti, yazdığı əsərləri, malik olduğu çoxşaxəli elmi bilikləri ilə daima adından bəhs etdirən bu görkəmli alim haqqında əfsanələrə çevrilmiş hekayələr hələ də üləmalar arasında nəql olunmaqdadır.

## 2.Şeyx Bəhaəddin Amilinin həyatı

XVI–XVII əsrlərdən günümüzə qədər dəyərini itirməyən zəngin mədəni irsin müəllifi olan alimlərdən biri sayılan Bəhaəddin Məhəmməd ibn Hüseyn əl-Amili sadəcə ilahiyyat elmləri ilə deyil, həm də fəlsəfə və dünyəvi elmlər sahəsindəki çalışmaları ilə diqqət çəkmişdir. Onun şəxsiyyəti, həyatı, dini məzhəbi, əsərləri və dünyagörüşü ilə bağlı müxtəlif mənbələrdə fərqli fikirlər mövcuddur.

Bəhaəddin Amilinin tam adı Məhəmməd bin İzzəddin Hüseyn bin Əbdussəməd bin Şəmsəddin Məhəmməd bin Əli əl-Hüseyn bin Məhəmməd Salehil Amili əl-Cubbai əl-Harisi əl-Həmdanidir [Əd-Dəməşqi, s.440].

Onun doğulduğu bölgə haqqında müxtəlif məlumatlar mövcuddur. Üzərində dayanılan ortaq məlumata əsasən Bəhaəddin Amilinin hicri-qəməri təqvimlə 953-cü ilin zilhiccə ayının 17-də (miladi 1546-cı il), Livanın Bəəlbək şəhəri yaxınlığındakı Cəbə kəndində dünyaya göz açdığı söylənilir. Doğum və vəfat tarixləri mənbələrin məlumatına görə məzar daşı və divar daşı kitabəsində fərqli illərdə əks olunmuşdur [Shaykh Baha'i].

Əllamə Hilli özünün "İrşad" adlı kitabında Amilinin atasının öz övladlarının dünyaya gəldiyi yer haqqında məlumatı paylaşarkən Bəhaəddin Amilinin hicri 953-cü ildə zilhiccənin 17-si cümə günü günəşin batışından sonra dünyaya gəldiyini zikr etdiyini görürük [Arslan, 2007, s.9].

Bəhaəddin Amilinin ilk müəllimi öz atası Şeyx Hüseyn bin Əbdussəməd bin Şəmsəddin Məhəmməd bin Əli bin Hüseyn bin Məhəmməd bin Saleh bin əl-Amili əl-Cübbai əl-Harisi əl-Həmdani (984/1576) olmuşdur. O ibtidai təhsilinin bünövrəsini atasının zəngin biliyi ilə möhkəmlətmişdir.

Amilinin həyatı haqqında olan məlumatları əks etdirən mənbələrə baxdıqda, onun həyat yoldaşının Şeyx Əli Minşarın qızı olduğu məlum olur. O, elm aləmində yetəri qədər tanınan biri olmuş və atası vəfat etdikdən sonra təqribən dörd min cilddən ibarət zəngin kitabxanası miras qalmışdır. Bəhaəddin Amili bu kitabxananı ümumi istifadəyə vəqf etmişdir. Vəfatından sonra isə tarixçilərin yazdığına əsasən laqeydlik və biganəlik səbəbindən kitabxana dağılmışdır [Qummi, s.501].

Tədqiqatçıların qeydlərini incələdikdə Amilinin övlad sahibi olmadığı anlaşılır. Onun ömrünün bir hissəsini təkbaşına səyahətlərdə keçirməsi bu ehtimalı doğruldur, bəzi mənbələr isə onun sonsuz olmasını qeyd edir [Amin, s.242].

Şeyx Bəhaəddin ömrünün böyük qismini səyahətlərdə keçirmişdir. Səfərləri əsnasında müxtəlif ölkələrdə elm dahiləri ilə görüşmüşdür. Onun səyahətləri atasının peşə fəaliyyətinin xarakteri ilə bağlı olaraq daha müxtəlif və sayca çox olmuşdur. Mənbələrin məlumatına görə Amili dünyaya gəlməmişdən əvvəl atası Şamda yaşamış, 10–13 yaşlarında olanda atası ilə İrana getmiş, sonralar Səfəvi hökmdarı Şah Abbasın zamanında bir müddət İsfahanda qalmışdır. İlk müəllimi atası sayılan Amilinin digər müəllimi isə Əllamə Şeyx Abdullah Yəzdi (981-1573) olmuşdur. Atası müəyyən bir müddət Şah Təhmasibin dövründə Herata köçdüyü üçün onunla həmsəfər olmuş, bu səyahətlərin birində "Əl-Fəvaidus Samədiyyə" əsərini tamamlamışdır. Daha sonra atası Şah Abbasla görüşmək üçün Amili ilə birgə Qəzvinə gəlmişdir. Həmin dövrdə atası şeyxülislam vəzifəsində çalışdığı məlumatı məxəzlərdə öz əksini tapmışdır. Oğlu ilə birlikdə həcc ziyarətinə getmək üçün Şah Abbasdan izn istəsə də, şah tək getməsini, oğlunun da onun (atasının) yerinə Heratada atasının vəzifəsini yerinə yetirməsini tapşırmışdır. Şah Abbas hicri 1006-cı ildə paytaxtı İsfahana köçürəndə Şeyx Bəhaiddini Şeyxülislam vəzifəsinə təyin etmiş və beləliklə Amili ilk rəsmi vəzifəsinə başlamışdır.

Qaynaqların məlumatına görə ömrünün sonrakı illərində zahidanə həyat yaşamağa başlamış, dərviş qiyafəsində Misir, İraq, Hicaz, Suriya və Anadoluya səfərlər etmiş, əsərlərinin bir qismini də bu səfərlər zamanı qələmə almışdır [Okumuş, 1991, s.60–61]. İslam aləminin görkəmli şəxsiyyətlərindən olan Müctehid Qəzvini, Fazil Cavad, Molla Sədra, Molla Muhsin, Mühəqqiq Səbzəvari, Məhəmməd Təqi Məclisi kimi alimlər onun tələbələrindəndir [Əhmədov, 2005, s.105].

Atasının və Şah Təhmasibin vəfatından dörd il sonra 988/1580-ci illərdə Təbrizə gələn Amili Həcc ziyarətinə getmək üçün hazırlaşmış, Rəcəb ayında 991/1583-cü ildə ziyarətini yerinə yetirmişdir. Daha sonra bir digər müqəddəs məkanlardan olan Qüdsdəki Beytül-Müqəddəsi ziyarət edib Dəməşq, Hələb, İstanbul, İran, Qəzvin, İsfahan, İraq və Gəncəyə səfər etmiş, müəyyən müddətlərdə burada qalmışdır. Son rəsmi vəzifəsi Məşhəd şəhərində bitmiş, bundan sonra isə Tiflis, Qum, İran və ən sonda yenə İsfahana qayıtmışdır. Hicri-qəməri təqvimlə 1030-cu ilin şəvval ayının 12-də İsfahanda vəfat edən alimin cənazəsi Məşhədə aparılaraq səkkizinci imam Rzanın (ə) hərəminin yaxınlığındakı evində dəfn edilir.

Zəmanəsinin görkəmli nümayəndələrindən biri olan Şeyx Bəhaəddin Amili dövlət işləri, elmi araşdırma fəaliyyəti və din təbliği ilə yanaşı, könüllərə hüzur, aramlıq və feyz bəxş edən, məlahətli və bəlağətli neçə-neçə şeirlərin də müəllifidir. Xüsusən Molla Ruminin

üslubunda yazdığı "Qürər və Dürər" (Parıltılar və İncilər) adlı məsnəvisi xalqın dilində əzbərə çevrilmişdir:

*"Din yolunda çətin olmaz vəziyyət,*
*Bədənə yorğunluq gəlsə, cana əziyyət.*
*Mətləbin böyüksə dərdin asandır,*
*Sürü tozu qurd gözünə dərmandır"* [Türkman, 2009, s.281].

**3.Şeyx Bəhaəddin Amilinin əsərləri**

Uzun illər Şah Abbasın hakimiyyəti illərində İsfahanda şəriət məhkəməsinin baş qazisi-şeyxülislam vəzifəsini icra edən Şeyx Bəhaiddin dövrünün ədəbi və dini sahəsində parlaq simalarından biri, həmçinin 11–17-ci əsrlərin mücəddidi hesab olunur. Həyatı boyunca saysız tələbələr yetişdirən Şeyx Bəhaiddin həm də yaradıcılıq baxımından zəngin irsə sahib müəllif idi. Onun ərəb və fars dillərində qələmə alınmış təxminən yüzə qədər əsəri vardır.

Bütün həyatını demək olar ki, oxuma, araşdırma, incələmə və əsər yazmağa həsr edən Bəhaəddin Amilinin əsərlərinin əsas xüsusiyyəti izahı və anlaşılması qəliz olan problemlərin daha başadüşülən və elmi metodla ələ alınıb yenidən işlənilməsidir. (ilmidunyasi.com, 2025. https://www.ilimdunyasi.com/islam-alimleri/bahaaddin-amili/) Şeyx Bəhaəddin Amilinin əsərlərinin bir qismi aşağıdakılardır:

***3.1.Dil-Ədəbiyyat yönümlü əsərlər***

- "Kəşkül" -ədəbi-dini-elmi antologiya. Yalnız ədəbi-elmi baxımdan deyil, həm də insan təbiətini və düşüncəsini anlamaq üçün mühüm mənbədir. Sözlər və yazılar antologiyası mahiyyətində olan bu əsər "Əl-Mihlat" əsərinin bir növ davamıdır. (Okumuş, 1991, s. 60–61. TDV İslam Ansiklopedisi, 1991, İstanbul, cild 3. Səh 60-61 Ömər Okumuş "AMİLİ, Bahaeddin") Əsərdə 220 ərəb, 126 İran şairinə aid 5000 beytə yaxın şeir yer alır. (Elmalı, 2022, s. 324–325. TDV İslam Ansiklopedisi, 2022, Ankara, cild 25. Səh 324-325 Hüseyin Elmalı "el-KESKÜL")
- "Əl-Mixlat" -"Kəşkül" tərzində olan bu əsərdə gözəl sözlər və şeirlər yer alıb.
- "Əl-Fəvaidüs-Samədiyyə"-qardaşı Abdussaməd üçün qələmə aldığı. (ebedinur.info, 2025. https://ebedinur.info/seyx-behai/)
- ərəb nəhvi ilə əlaqəli əsərdir.
- "Əl-Fauz"-(Vəsilətül-fauz vəl-əman fi Mədhi sahibiz-zəman) On ikinci imam Mehdiyə (ə) həsr edilən ərəbcə qəsidədir.
- "Təhzibul-bəyan"- ərəb nəhvi ilə əlaqəli əlaqəli əsərdir.
- "Vüsulul-əxyar ilə üsulil-əxbar".

***3.2.Farsca əsərləri***

- «Nanü həlva»
- «Şirü şəkər»
- «Nanü pənir»
- «Muşü qorbe»

***3.3.Hədislə əlaqəli əsərləri***

- «Əl-Ərbəun» – Qırx hədisin şərhidir.
- «Əl-Həblul-mətin fi əhkamid-din» – Səhih və həsən hədislərin şərhidir. Kitab dörd hissədən ibarətdir (ibadətlər, əqidə, əməl, əhkam).

***3.4.Fiqhi əsərləri***

- «Kitabul-isna əşəriyyatil-Xams» – Şiə fiqhinə dair əsərdir. Təharət, namaz, zəkat, həcc, oruc kimi mövzulardan bəhs edir.
- «Əl-Camiul-Abbasi» – Şah Abbasa ithaf edilən farsca əsərdir. Şiə fiqhinə dair əsər olub, iyirmi babdan ibarətdir. İbadətlərə aid ilk beş babını yazdıqdan sonra Amili vəfat etmiş, daha sonra tələbəsi Nizamuddin əs-Savici bu beş babı kitaba əlavə edərək onu

tamamlamışdır. (Arslan, 2007, s. 23. “Bahauddin El-Amili ve El-Mihlat Kitabı” Yüksek lisans tezi, Abdullah Arslan, Konya 2007, səh 23)

- «Cavabatuş-Şah Abbas» – On beş mövzudan ibarət əsər.
- «Cavabatul-məsailil-Cəzairiyyə» – Tələbəsi əl-Həsənil-Cəzairi və Şeyx Salihin Amiliyə verdiyi suallara əsasən verilən cavabların yer aldığı əsər.
- «Haşiyətu Şərhi Müxtəsəril-üsul»
- «Haşiyətun əla mən la yahduruhul-fəqih»
- «Risalətun fi əhkamis-sücud»
- «Risalətun fi zəbaihi əhlil-kitab»
- «Kitabul-vəcizə»
- «Risalətun fi fiqhis-salat»
- «Risalətun fil-miras»
- «Risalətun fi təbəqatir-rical»
- «Risalətun fil-qəsri bis-salati vət-təxyir fis-səfər»
- «Risalətun fi Məbahisil-kurr»
- «Kitabuz-zubdəti fi usulil-fiqh»
- «Ər-risalətul-isna əşəriyyə»
- «Şərhu risalətin fis-saum»
- «Kitabu məşriqiş-şəmseyn və iksirus-səadəteyn»
- «Kitabu misbahil-abidin»
- «Havaşin ələl-qəvaidiş-şəhidiyyə»
- «Haşiyətun əla kitabi muxtələfiş-şiəti fi əhkamiş-şəriə»
- «Maqalətun fi imtinaiz-zavcəti ən mutlaqil-istima»
- «Məqalətun fi səcədatil Qurani və əhkamiha və adabiha»
- «Maqalətun fi ma la Tətimmu bihis-salatu minəl-hərir»
- «Maqalətun fi vəchit-təğallubi fi qavlihi subhanəhu və təala "ma kunna fi əshabis-səir»
- «Risalətun fi nəcasəti zəbaihil-kuffari və sanaihim»
- «Risalətun fi vəhdətil-vücud»

***3.5.Təfsirlə əlaqəli əsərlər***

- «Haşiyətun əla təfsiril-Beydavi»
- «Kitabu həllil-hürufil-Quraniyyə»
- «Havaşin əla Təfsiril-Kəşşaf»
- «Şərhu təfsiril-Beydavi»
- «Eynul-hayat»

***3.6.Riyaziyyat və astronomiya ilə əlaqəli əsərləri***

- «Bəhrul-hisab»
- «Xülasətul-hisab»
- «Təşrihul-əflak»
- «Risalətun fi tədarisil-ərz»
- «Risalətun fi təhqiqi cihətil-qiblə»
- «Risalətun fi innə ənvarə sairil-kəvakibi tustəfadu minəş-Şems»
- «Risaleyi-durri halli əşkali utarit və Qamər» (Farsca yazılmış əsərdir)
- «Risalətun fi nisbəti ə’zamil-cibali ila qatril-ərz şərhu Haqqı»
- «Əs-Sahifətul-usturlabiyyə»: (bu kitab kiçik həcmli bir əsərdir)
- «Kitabu luğatil-qanun»
- «Risalətun fit-təqvim»
- «Mizanul-məqadir»

- «Cəbrul-hesab» (kitabı bitirmədən vəfat etmişdir)
- «Fi təşrih əl-Əflak» (Səma kürələrinin anatomiyası)
- «Risaleyi-həlli-işkali-Utarid və Qəmər» (Merkuri və Ayın problemlərinin həlli haqqında risalə)
- «Əsrarul-bəlağə»
- «Hədaiqus-salihin»
- «Şərhu Duais-Sabah»
- «Əl-Həqiqətül-əxlaqiyyə» (bu kitab "Duau makarimil-əxlaq" kitabının şərhidir)
- «Miftahul-Fəlah» (kitab günlük edilən zikr və dualardan ibarətdir)
- «Ürvətül-vüsqa» (Qırılmaz bağ) -Qurani-məcidin təfsirinə dair əsəri;
- «Kitabi-cəbəlül-mətin» (Mətanətli dağ kitabı); özündə səhih hədislərin toplusunu və hər bir hədisin faydası, sübutu və şərhi məsələlərini əks etdirir.
- «Kitabi-məşriqüş-şəmseyn» (İki günəşin doğması kitabı)
- «Təfsiri-ayati əhkam və əhadisi-səhihə» (Ehkam ayətlərinin və səhih hədislərin təfsiri) əsəri;
- «Haşiyeyi-təfsiri-Qazi» (Qazinin təfsirinə haşiyə) əsəri;
- «Qəvaidi-şəhidi» (Şəhidlik qaydaları) əsərinə haşiyə;
- «Kitabi-hədayiqüs-salehin» (Salehlər bağçası kitabı) əsəri -«Səhifeyi-kamilə» (Kamil səhifə) əsərinin şərhi barədə yazılıb.
- «Kitabu eynül-həyat fi təfsiri ayat» (Ayələrin təfsirinə dair dirilik bulağı kitabı) əsəri;
- «Kitabe-çehel hədis" (Qırx hədis kitabı);
- «Şərhüş-şərhi-Çəğmini" (Çəğmininin şərhinə dair şərh) əsəri -astronomiya (heyət) barəsində
- «Haşiyeyi-şərhi-müxtəsəri-üsül» (Dinin əsaslarına dair müxtəsər şərhə haşiyə) əsəri;
- «Haşiyeyi-mütəvvəl» (Geniş haşiyə) əsəri;
- «Risaleyi-təşrihül-əflak» (Fələklərin şərhinə dair risalə) əsəri astranomiya (heyət) barəsindədir.
- «Risaleyi-xülasətül-hesab» (Qısa hesab risaləsi) əsəri;
- «Risaleyi-səhifə» (Səhifə risaləsi) əsəri -üstürlab haqqında;
- «İsna-əşəriyyat» (On iki imamlıq (əqidəsi) əsəri;
- «Ərbəeyi-təharət» (Paklıq dördlüyü) əsəri;
- «Sovm» (Oruc) əsəri;
- «Salavat» (Namazlar) əsəri;
- «Həcc» əsəri;
- «Kitabi-zübdətül-üsul» (Dinin əsaslarının xülasəsi kitabı) əsəri;
- «Miftahül-fəlah» (Səadətin açarı) — (Xəstəliklərin sünnət (Muhəmməd (s) peyğəmbərin qoyduğu ənənə) vasitəsilə müalicəsi barədə əsəri;

Şeyx Bəhaiddin elmə verdiyi töhfələrlə günümüzdə də haqqında danışılan dahi şəxsiyyətlərdəndir. 2009-cu ildə UNESCO Şeyx Bəhaiddini İranın astronomiyaya töhfə verən görkəmli şəxsiyyətləri siyahısına daxil etmişdir [Ahad, 2025]. O, Kopernik kəşfləri geniş yayılmamışdan əvvəl Yer kürəsinin hərəkəti ehtimalını irəli sürən ən qədim astronomlardan biri hesab olunur.

**4.Şeyx Bəhaəddin Amilinin Memarlıq İrsi**

Memarlıq irsimizin həm elmi, həm də sənətkarlıq baxımından mühüm səhifələrindən biri Şeyx Bəhaəddin Amilinin adı ilə bağlıdır. Bu baxımdan onun yaratdığı abidələr diqqətəlayiqdir. Şeyx Bəhaəddin memarlıq tarixində özünəməxsus yeri ilə seçilən böyük şəxsiyyətlərdən biridir. Səyahətləri ərzində qalmış olduğu müxtəlif ölkələrdə müəllifi

olduğu memarlıq nümunələri günümüzdə də heyranedici gözəlliyi və əzəməti ilə hələ də mövcudluğunu davam etdirməkdədir.

Şeyx Bəhaəddin Amilinin müəllifi olduğu məşhur sənət əsərlərindən biri Azərbaycanın dilbər guşələrindən olan Gəncə şəhəri ərazisində yerləşir. 1606-cı ildə inşa olunduğu bilinən Gəncə Şah Abbas Məscidi Şeyx Bəhaəddinin dəqiq riyazi hesablamaları əsasında tikilib [Rövşənoğlu, 2021]. Gəncə abidələri içərisində memarlıq həllinə görə diqqət cəlb edən bu tikili Cümə Məscidi də adlandırılır. Şah Abbas Məscidi iri giriş otağından, iki qoşa minarədən və böyük məscid binasından ibarətdir. Məscidin giriş qapısında iki kitabə mövcuddur. Onlardan biri ərəb, digəri fars dilindədir. Məscidin inşası zamanı qırmızı bişmiş kərpicdən istifadə olunub. Pəncərələri isə şəbəkəli rəngli şüşələr ilə bəzədilib. Məscidin qərb divarında yerdən iki metr hündürlükdə balıq formasında kərpic çıxıntısı var ki, günəş zenit nöqtəsində olanda bu çıxıntıdan düşən kölgə itir. Bununla memar günorta namazının vaxtının gəldiyini göstərmək istəyib. Fəsillərdən asılı olmayaraq hər gün günorta təxminən saat 13:00-da günəş şüasının daim pəncərədən daxilə eyni bir kərpicin üzərinə düşməsi müşahidə olunur.

Məscidin möcüzələrindən biri tək soba ilə qızmasıdırsa, digəri də bir mismar belə işlənmədən palıd ağacından şəbəkə üsulu ilə hazırlanmış, özü-özlüyündə bir sənət nümunəsi olan minbəridir. Onun yaşının məscidlə eyni olduğu söylənilir.

Minbərin sol tərəfində olan ərəbcə yazıdan abidənin müxtəlif düşmən hücumları zamanı zədə alması və Cavad xan tərəfindən iki dəfə əsaslı təmir edildiyi məlum olur [Memim.az, 2025] Sonuncu dəfə Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə restavrasiya edilmişdir.

Bəhaəddin Amilinin başqa bir əsəri isə yenə Gəncə şəhərində inşa edilmiş, Çökək Hamam tarix-memarlıq abidəsidir. Şah İsmayıl Xətai prospektində yerləşən bu tikili, Arran memarlıq üslubunda, I Şah Abbasın sifarişi əsasında tikilib. Şəhər əhalisi arasında "Şah Abbas Hamamı" adı ilə də tanınır. "Çökək" adı ilə adlanma səbəbi isə suyun təzyiqini təmin etmək üçün hamamın çökək ərazidə tikilməsi ilə əlaqədardır. Hamam iki iç-içə zaldan ibarətdir. Böyük zalın içərisində çarhovuz və fəvvarə var. Kiçik zal isə yuyunmaq üçündür. Hamam iki böyük, beş kiçik günbəzdən ibarətdir [Vikipediya, 2025].

Şeyx Bəhaəddinin layihəsi olduğu digər memarlıq əsərləri mənbələrin məlumatına görə aşağıdakılardır [Wikishia]:

- İsfahanın yeddi bölgəsi üçün Zəyanə-Rud çayının su mühəndisliyi işləri;
- Nəcəfabad kanalının (Zərrin Kəmər su kəməri) layihələndirilməsi;
- İsfahandakı İmam məscidinin dəqiq qiblə istiqamətinin müəyyən edilməsi;
- Nəcəfin divarının xəritəsini çəkmək;
- İsfahan "İmam məscidi"nin qərb tərəfində və həmçinin İmam Rzanın (ə) hərəminin həyətində günorta vaxtını dəqiq göstərən günəş saatının layihələndirilməsi və inşası;
- Nəcəfdə İmam Əlinin (ə) hərəminin həyətində bütün il boyu günorta vaxtını göstərən bir divarın tikilməsi;
- İmam Rzanın (ə) hərəminin həyətlərini altıbucaqlı forma üzrə layihələndirmək;
- İsfahanda məşhur olan və "Sefidab Şeyx" adını alan, "ağ qurğuşun" (sifidab) adlı maye qarışığın ixtira edilməsi;
- İsfahandakı Minare-Conbanın (Titrəyən minarələrin) inşası;
- İsfahan "İmam məscidi"nin günbəzini səsi yeddi dəfə əks-səda verəcək şəkildə layihələndirmək;
- Qurulmağa ehtiyacı olmayan bir saatın ixtira edilməsi.

Əsrlərdir haqqında danışılan bir əsər də, İranın İsfahan şəhərində yerləşən və "şam işığı ilə qızdırılan hamam" tikilisidir. XVII əsrə aid olan bu tarix-memarlıq abidəsi öz qeyri-adiliyi ilə diqqət çəkmiş, mexanizmini öyrənmək üçün Zəndilər sülaləsi dövründə zirzəmisi sökülüb, isitmə mexanizmi çıxarılaraq İngiltərəyə araşdırılmaq üçün aparılmışdır. Şeyx

Bəhaəddin sağ ikən bu nadir abidə haqda belə deyib: "Əgər mənim vəfatımdan sonra hamamın zirzəmisini açıb su anbarını söksələr, orada yanan şam sönəcək. Hamam bir daha əvvəlki qayda ilə işləməyəcək". Mütəxəssislər bu fikirlə tanış olarkən belə qənaətə gəliblər ki, görünür, memar fəzanın hermetikliyinin pozulacağını nəzərdə tutaraq bunu söyləyib [AzərTac, 2018].

**5.Nəticə**

İslam aləminin görkəmli şəxsiyyətlərindən biri olan Şeyx Bəhaəddin Amili haqqında aparılan araşdırmanın sadəcə cüzi bir hissəsinin yer aldığı məqalədə bu dahi şəxsiyyətin islam aləminə qazandırdığı sayısız zənginliklərin cüzi hissəsinin qeyd olunması, öz növbəsində onun irsinin miqyasının nə qədər böyük olduğu barədə oxuculara məlumat verir. İstər yazdığı onlarla dəyəri ölçüyəgəlməz əsərləri, istər memarlıq sahəsində yaratdığı təkrarolunmaz nümunələri onun elminin parlaq göstəricilərindəndir. Ömrünü elmə, dinə, xeyirxahlığa həsr edən, neçə-neçə dəyərli alimlərə müəllim olan, biliyi, davranışı və zahidliyi ilə seçilən bu möhtərəm zat günümüz gənclərinə örnək olası xüsusiyyətləri, biliyi və zəngin şəxsiyyəti ilə daim yaddaşlarda qalacaqdır.

**5.REFERENCES**


1. (2016). *Hadiths and Islam.* Vol. 7 (p.177). Baku: Nurlar Publishing. (in Azerbaijani)
2. Ehlisunnetbuyukleri.com. (n.d.). *Islamic Scholars Encyclopedia – Preface.* Retrieved from https://www.ehlisunnetbuyukleri.com/Islam-Alimleri-Ansiklopedisi/Onsoz (in Turkish)
3. Al-Dimashqi al-Muhibbi, M. A. ibn F. ibn M. (n.d.). *Khulasat al-Athar fi A'yan al-Qarn al-Hadi 'Ashar* (Vol. 3, p.440). Beirut: Dar al-Kutub al-'Ilmiyya. (in Arabic)
4. Shaykh Baha'i. (n.d.). *Jame' Abbasi (The Comprehensive Abbasid Work).* Retrieved from https://ketabnak.com/book/14026/ جامع-عباسی (in Persian)
5. Arslan, A. (2007). *Baha al-Din al-Amili and the Book al-Mihlat* (Master's thesis). Konya, p.9. (in Turkish)
6. Qummi, Sh. A. (n.d.). *Al-Fawa'id al-Radawiyya* (Vol. 2, p.501). (in Arabic)
7. Amin, S. M. (n.d.). *A'yan al-Shi'a* (Vol. 9, p.242). (in Arabic)
8. Okumus, O. (1991). *Amili, Baha al-Din.* In *The Encyclopedia of Islam by TDV* (Vol. 3, 60–61). Istanbul: TDV Publications. Retrieved from https://islamansiklopedisi.org.tr/amili-bahaeddin (in Turkish)
9. Ahmadov, Sh. (2005). *The Process of the Spread of Shiism in Azerbaijan* (Doctoral dissertation). Ankara, p. 105. (in Turkish)
10. Turkman, I. B. M. (2009). *Tarikh-i Alam-ara-yi Abbasi (The World-Adorning History of Abbas)* (Vol. 1, p.281). Baku: Tahsil. (Eds. O. Efendiyev & N. Musali). (in Azerbaijani)
11. Ilimdunyasi.com. (n.d.). *Baha al-Din al-Amili. New Guide Encyclopedia*, Vol. 3, 311–312. Retrieved from https://www.ilimdunyasi.com/islam-alimleri/bahaaddin-amili/ (in Turkish)
12. Okumus, O. (1991). *Amili, Baha al-Din.* In *The Encyclopedia of Islam by TDV* (Vol. 3, 60–61). Istanbul: TDV Publications. (in Turkish)
13. Elmali, H. (2022). *Al-Kaskul.* In *The Encyclopedia of Islam by TDV* (Vol. 25, 324–325). Ankara: TDV Publications. (in Turkish)
14. Ebedinur.info. (2025). *Sheikh Bahai.* Retrieved from https://ebedinur.info/seyx-behai/ (in Azerbaijani)
15. Arslan, A. (2007). *Baha al-Din al-Amili and the Book al-Mihlat* (Master's thesis). Konya, p. 23. (in Turkish)
16. Ahad, H. (2025, April 23). *Remembering Sheikh Bahai: Iran's Iconic Theologian, Astronomer, and Engineering Genius. PressTV.* Retrieved from

https://www.presstv.ir/Detail/2025/04/23/746724/Remembering-Sheikh-Bahai,-Iran-s-iconic-theologian,-astronomer,-engineering-genius (in English)

**17.** Rovshanoglu, K. (2021). *The Services of Sheikh Bahai, the Vizier of Shah Abbas, to the Empire*. Retrieved from https://millikimlik.az/2021/3648/ (in Azerbaijani)

**18.** Memim.az. (2022). *Monuments of Ganja: Shah Abbas Mosque.* Retrieved from https://www.memim.az/xeberler/gence-abideleri-sah-abbas-mescidi-1671379712 (in Azerbaijani)

**19.** Wikipedia. (n.d.). *Chokak Bathhouse.* Retrieved from https://az.m.wikipedia.org/wiki/%C3%87%C3%B6k%C9%99k_hamam (in Azerbaijani)

**20.** Wikishia. (n.d.). *Baha al-Din al-Amili.* Retrieved from https://en.wikishia.net/view/Baha%27_al-Din_al-%27Amili (in English)

**21.** AzerTaj. (2018). *On the Heritage of Sheikh Bahai.* Retrieved from https://portal.azertag.az/az/node/5963?utm_source (in Azerbaijani)

## ƏDƏBİYYAT

**1.** (2016). *Hədislərlə İslam.* Cild 7. (s.177) Bakı: Nurlar nəşriyyatı.

**2.** Ehlisunnetbuyukleri.com. (t.y.). *İslam Âlimleri Ansiklopedisi – Önsöz.* Erişim adresi: https://www.ehlisunnetbuyukleri.com/Islam-Alimleri-Ansiklopedisi/Onsoz

**3.** Əd-Dəməşqi Əl-Muhibbi, M. Ə. b. F. b. M. (n.d.). *Xulasatul əsər fi Ayanil Qarnəl Hadi Aşər* (Cild 3, səh.440). Beyrut: Darul-Kutubil-İlmiyyə.

**٤.** شیخ بهایی. (t.y.) *جامع عباسی*. دریافت‌شده از: https://ketabnak.com/book/14026/%D8%AC%D8%A7%D9%85%D8%B9-%D8%B9%D8%A8%D8%A7%D8%B3%D9%89

**5.** Arslan, A. (2007). *Bahauddin El-Amili ve El-Mihlat Kitabı* (Yüksek lisans tezi). Konya, s.9.

**6.** Qummi, Sh. A. (n.d.). *Al-Fawaid al-radawiyya* (Vol. 2, p.501).

**7.** Amin, S. M. (n.d.). *Ayan al-Shia* (Vol. 9, p.242).

**8.** Okumuş, Ö. (1991). *Amili, Bahaeddin.* TDV İslam Ansiklopedisi (Cild 3, səh. 60–61). İstanbul. Erişim adresi: https://islamansiklopedisi.org.tr/amili-bahaeddin

**9.** Əhmədov, Ş. (2005). *Azerbaycanda Şiiliğin Yayılma Süreci* (Doktora tezi). Ankara, s.105.

**10.** Münşi Türkman, İ. B. (2009). *Tarix-i Aləmara-Yi Abbasi (Abbasın Dünyanı Bəzəyən Tarixi)* (Cild 1, səh.281). Bakı: Təhsil. (Red.: O. Əfəndiyev, N. Musalı).

**11.** İlimdunyasi.com. (t.y.). Bahaaddin Amili. *Yeni Rehber Ansiklopedisi*, Cilt 3, s.311-312. Erişim adresi: https://www.ilimdunyasi.com/islam-alimleri/bahaaddin-amili/

**12.** Okumuş, Ö. (1991). AMİLİ, Bahaeddin. *TDV İslam Ansiklopedisi* (Cild 3, 60–61). İstanbul.

**13.** Elmalı, H. (2022). El-Keskül. *TDV İslam Ansiklopedisi* (Cild 25, 324–325). Ankara.

**14.** Ebedinur.info. (2025). *Şeyx Behai.* Alındı: https://ebedinur.info/seyx-behai/

**15.** Arslan, A. (2007). *Bahauddin El-Amili ve El-Mihlat Kitabı* (Yüksek lisans tezi). Konya, s.23.

**16.** Ahad, H. (2025, April 23). Remembering Sheikh Bahai, Iran's iconic theologian, astronomer, engineering genius. *PressTV.* Retrived from: https://www.presstv.ir/Detail/2025/04/23/746724/Remembering-Sheikh-Bahai,-Iran-s-iconic-theologian,-astronomer,-engineering-genius

**17.** Rövşənoğlu, K. (2021). *Şah Abbasın Vəziri Şeyx Bəhainin İmperiya Qarşısındakı Xidmətləri.* Alındı: https://millikimlik.az/2021/3648/

**18.** Memim.az. (2022). *Gəncə abidələri: Şah Abbas məscidi.* Alındı: https://www.memim.az/xeberler/gence-abideleri-sah-abbas-mescidi-1671379712

**19.** Wikipedia. (t.y.). *Çökək hamam.* Alındı: https://az.wikipedia.org/wiki/%C3%87%C3%B6k%C9%99k_hamam
**20.** Wikishia. (t.y.). *Baha' al-Din al-'Amili.* Retrived from: https://en.wikishia.net/view/Baha%27_al-Din_al-%27Amili
**21.** AzerTac. (2018). *Şeyx Bəhainin irsi haqqında.* Alındı: https://portal.azertag.az/az/node/5963?utm_source